# KİTABXANAŞÜNASLIQ ELMİNDƏ FUNDAMENTAL NƏZƏRİYYƏ YARATMIŞ ALİM

**Zahidə Rzayeva**

*BDU, Kitabxanaçılıq-informasiya fakültəsinin elmi işlər üzrə dekan müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*

Müasir dövrdə dünyada istənilən bir elm sahəsində yenilik yaradan və yeni istiqamət müəyyənləşdirən, fundamental elmin əsasını yaradan şəxslərə xüsusi hörmət və ehtiram daim göstərilməkdədir. Belə şəxslərdən biri də Azərbaycan kitabxanaşünaslıq elminin banisi, görkəmli alim, fəaliyyəti və əməlləri ilə yaddaşlarda daim yaşayan vətənsevər ziyalı, ölkəmizdə milli kitabxanaşünaslıq elmi məktəbini yaradan, ali kitabxanaçılıq-informasiya təhsilinin təşkilatçısı, Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, Bakı Dövlət Universitetinin fəxri professoru Abuzər Alı oğlu Xələfovdur.

A.Xələfov kitabxanaşünaslıq elm sahəsində özündən sonra dərin iz qoyub gedən və daim yaddaşlarda qalan unudulmaz alimdir. Onun yaradıcılığında kitabxanaşünaslıq elminin fundamental nəzəriyyəsi, kitabxanaşünaslıq anlayışının və fəlsəfəsinin yaradılması, formalaşması və inkişafı müasir konteksdə təhlil edilərək oxucuların, bu sahə üzrə fəaliyyət göstərən mütəxəssislərin nəzərinə çatdırılmışdır. Alimin həyat və yaradıcılığı bilavasitə kitabxanaşünaslıq elmi ilə bağlı idi. Onun ərsəyə gətirdiyi sanballı elmi-tədqiqat əsərləri bu gün də ixtisasçı kadrlar tərəfindən mütaliə edilir.

A.Xələfov kitabxanaşünaslıq, kitabxana işi, mədəniyyət, təhsil və informatika sahələrinin tarixinə, müqayisəli təhlilinə və nəzəriyyəsinə dair 500-dən artıq elmi əsər çap etdirmişdir ki, bunlardan 40-a yaxın monoqrafiya, dərslik və dərs vəsaitidir. Monoqrafiya, dərslik və dərs vəsaitlərində, elmi məqalələrində müəllif kitabxanaşünaslığın elmi əsasları, digər elmlərlə qarşılıqlı əlaqələri, nəzəriyyə, metodologiya və metodikasının əsasları, ali kitabxanaçılıq-biblioqrafiya təhsili məsələləri və bir sıra mühüm aktual problemləri elmi tərəfdən izah etmiş və bu sahə üzrə çalışan mütəxəssislər, oxucu qrupları üçün ətraflı şəkildə, konkret izahlarla açıqlamışdır. Onun elmi-tədqiqatlarının nəticələri bütövlükdə kitabxanaşünaslıq elmi və təcrübəsi üçün bu gün də əsaslı əhəmiyyət kəsb edir.